Ən çox oxunan qəzet

№ 124 (4578), 2017-ci il

Qiymət 30 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

Qəzet 1996-cı il noyabrın 1-dən çıxır

www.sherg.az

15 iyul (şənbə)



## 700 milyard...

ABŞ hərbi büdcə layihəsini qəbul edib

**ABŞ Konqresinin Nümayəndələr palatası 2018-ci maliyyə ili üçün həcmi təxminən 700 milyard dollar olan hərbi büdcə layihəsini qəbul edib.** Bu məbləğ Ağ Evin istədiyindən çoxdur. Xatırladaq ki, ABŞ-da yeni maliyyə ili oktyabrın 1-də başlayır.

(Səh.2)

## İki şəxs "Təzə Pir"ə qılıncla hücum etdi

Axunddan xütbəni dayandırmağı istəyənlər saxlanılıb



Bakıda məscidə hücum edən şəxslər saxlanılıb. Yasamal rayon Polis İdarəsindən verilən məlumata görə, Təzəpir məscidində bu gün günorta namazı qılınan zaman iki nəfər məscidə girib.

(Səh.8)

# Türk xalqı üzüağ çıxdı



## Daha Türkiyədə dövlət çevrilişi etmək imkanı yoxdur

**İyul ayının 15-i Türkiyədə baş vermiş hərbi dövlət çevrilişinə cəhdin ildönümüdür.** Düz bir il əvvəl terrorçu FETÖ üzvləri Silahlı Qüvvələrin içinə sızdırdıqları xain hərbiçilərlə birlikdə Türkiyə hakimiyyətini silah gücü ilə devirməyə cəhd göstərdilər. Gecə saatlarında xain generalların əmri ilə havaya qaldırılan qırıcılar İstanbul və Ankarada bir sıra mühüm dövlət obyektlərini, polis və xüsusi xidmət orqanlarının binalarını, o cümlədən xalqın inam yeri olan Türkiyə Böyük Millət Məclisini bombaladılar.

(Səh.3)



## "Heç kim xalqın iradəsinə qalib gələ bilməz"

Əli Həsənov: "Xalqın iradəsi bütün iradələrdən üstündür"

**Dünən Bakıda ötən il iyulun 15-dən 16-na keçən gecə Türkiyədə dövlət çevrilişi cəhdinin ildönümünə həsr olunmuş "15 iyul dastanı" adlı tədbir keçirilib.**

Tədbirdə Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və digər dövlət rəsmiləri iştirak ediblər. Əvvəlcə "15 iyul" şəhidləri 1 dəqiqəlik sükutla yad edilib.

## Səfir əminliklə danışdı

Fransa Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təşkil etməyə hazırdır



**Fransa Azərbaycan və Ermənistan prezidentlərinin görüşünə dair dialoqu təşkil etməyə daim hazırdır.**

Bunu jurnalistlərə açıqlamasında Fransanın Azərbaycandakı səfiri Orelia Buşez deyib.

(Səh.2)

**Günün içindən ● Günün içindən ● Günün içindən ● Günün içindən**



## Türkiyə hüquqi dövlət olmasaydı...

...15 iyulun günahkarları məzarda olardılar

**Əgər Türkiyə hüquqi dövlət olmasaydı, 15 iyulun günahkarları hazırda həbsxanalarda yox məzarda olardılar.**

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 15 İyul - Demokratiya və Milli Birlik Günü ərəfəsində iyulun 14-də Ankarada keçirilən anım tədbirində deyib.

(Səh.5)



## Qarabağ qazisi Oksananın gəlişindən narazıdır

**"Ermənilərin Bakıya gəlmələri hiylədir, aldanmaq olmaz"**

(Səh.8)